AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 34

Bakı şəhəri "17" mart 2011-ci il

**"Bakı şəhərində təcili və təxirəsalınmaz cərrahiyyə xidmətinin yaxşılaşdırılması və xəstələrin hospitalizasıyasının tənzimlənməsi barədə "**

Cərrahiyyə xidmətinin fəaliyyətini xarakterizə edən statistik rəqəmlərin təhlili göstərir ki, son illər ərzində bu sahədə nəzərə çarpan müsbət dinamika mövcuddur.

Belə ki, ümumi cərrahi profilli stasionarlara daxil olan xəstələrin, eləcə də keçirilən cərrahi əməliyyatların sayı artmışdır. Bununla yanaşı, diaqnostik və taktiki səhvlər xeyli azalmışdır.

Müasir müalicə üsulu hesab edilən miniinvaziv cərrahiyyə əməliyyatlarının, mürəkkəb və rekonstruktiv xarakterli əməliyyatların sayı da ilbəil artır.

Əməliyyatların sayının artmasına baxmayaraq, istər planlı, istərsə də təcili əməliyyatlardan sonra ölüm halları azalmışdır.

Bununla belə, Bakı şəhərində stasionar cərrahiyyə xidmətinin vəziyyətinin təhlili göstərmişdir ki, bu sahədə bir sıra çatışmazlıqlar qalmaqdadır. Bunlar əsas etibarilə xəstələrin hospitalizasiyası işinin təşkilində mövcud olan pərakəndəliklə bağlıdır ki, bu da öz növbəsində cərrahi xəstələrə tibbi yardımın vaxtında və lazımi səviyyədə göstərilməsinə mənfi təsirini göstərir.

Qeyd olunanları nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Bakı şəhəri üzrə kəskin cərrahi xəstələrin hospitalizasiyası bu əmrin əlavəsində göstərilən bölgü üzrə həyata keçirilsin.

2. Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi M. Həmidova tapşırılsın:

2.1. kəskin cərrahi xəstəliklərlə bağlı çağırışlar zamanı xəstələrin bu əmrin əlavəsində göstərilən bölgüyə uyğun olaraq ərazi prinsipi nəzərə alınmaqla tibb müəssisələrinə çatdırılması təmin edilsin;

2.2. kəskin cərrahi xəstələrin hospitalizasiyası ilə bağlı məlumatın dispetçer xidməti vasitəsilə əvvəlcədən xəstənin aparılacağı tibb müəssisəsinə verilməsi təmin edilsin.

3. Bu əmrin əlavəsində göstərilən tibb müəssisələrinin rəhbərlərinə tapşırılsın:

3.1. kəskin cərrahi xəstələrin bu əmrin əlavəsində göstərilən saatlarda qəbul edilməsi və lazımi tibbi yardımın göstərilməsi üçün müvafiq şəraitin yaradılması təmin edilsin. Bunun üçün xəstəxanada lazımi mütəxəssislərin və yardımçı diaqnostik xidmətlərin növbətçiliyi təşkil edilsin;

3.2. gündəlik olaraq boş çarpayılar haqqında məlumatın Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına verilməsi təmin edilsin;

3.3. ağır vəziyyətdə xəstəxanaya gətirilmiş (bu əmrin əlavəsində göstərilən bölgüyə uyğun olmasa belə) hər hansı patologiyalı kəskin cərrahi xəstəni qəbul edərək, ona ilk tibbi yardımın göstərilməsi və xəstənin patologiyasından asılı olaraq müvafiq mütəxəssisləri cəlb etməklə ( o cümlədən digər tibb müəssisələrindən) diaqnozun dəqiqləşdirilməsi və lazımi tibbi yardımın göstərilməsi təmin edilsin və yalnız bundan sonra, ehtiyac olarsa tibbi göstərişə əsasən onların profil üzrə tibb müəssisəsinə köçürülməsi məsələsinə baxılsın;

3.4. tibbi göstərişə görə xəstələrin bir müalicə müəssisəsindən digərinə köçürülməsi, bu müəssisələrin baş həkimlərinin və ya onların müavinlərinin öz aralarında razılaşmalarından sonra, təcili və təxirəsalınmaz yardım stansiyasının həkim briqadasının müşayiəti ilə həyata keçirilməsi təmin edilsin.

4. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri S. Əliyevə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
17.03. 2011-ci il tarixli 34 nömrəli əmrinə əlavə

**Bakı şəhərində yerləşən tibb müəssisələrinə kəskin cərrahi xəstələrin hospitalizasiyası üzrə bölgü**

| S/N | Nozologiyalar | Tibb müəssisələrinin adı | Xidmət etdiyi rayonlar | Müddət |
|---|---|---|---|---|
| 1 | Müştərək travmalar | Kliniki Tibbi Mərkəz | Bakı şəhərinin Nəsimi, Yasamal, Qaradağ, Səbail, Binəqədi, Nərimanov rayonları | 24 saat |
| | | 3 N-li Klinik Xəstəxana | Bakı şəhərinin Sabuncu, Suraxanı, Xəzər, Nizami, Xətai, Nərimanov rayonları | 24 saat |
| | | Respublika Klinik Xəstəxanası | Respublikanın digər şəhər və rayonları | 24 saat |
| 2 | Qarın boşluğu və döş qəfəsi üzvlərinin kəskin cərrahi xəstəlikləri | Kliniki Tibbi Mərkəz | Bakı şəhərinin Yasamal, Nəsimi, Binəqədi, Səbail, Nərimanov rayonları | 24 saat |
| | | | | 24 saat |
| | | 2 N-li Klinik Xəstəxana | Bakı şəhərinin Səbail, Xətai, Nizami, Nərimanov rayonları | 24 saat |
| | | 3 N-li Klinik Xəstəxana | Bakı şəhərinin Sabunçu, Suraxanı, Xəzər, Nizami rayonları | 24 saat |

| | | | | |
|---|---|---|---|---|
| | | 4 N-li Klinik Xəstəxana | Bakı şəhərinin Nəsimi, Səbail, Yasamal, Qaradağ rayonları | 24 saat |
| | | 5 N-li Klinik Xəstəxana | Bakı şəhərinin Nərimanov, Nəsimi, Binəqədi rayonları | 24 saat |
| | | Azərsutikinti xəstəxanası | Bakı şəhərinin Suraxanı, Nizami, Xətai rayonları | 24 saat |
| | | Respublika Klinik Xəstəxanası | Respublikanın digər şəhər və rayonları | 24 saat |
| | | Elmi Cərrahiyyə Mərkəzi | Respublikanın bütün şəhər və rayonları | 24 saat |
| 3 | Qarın boşluğu və döş qəfəsi üzvlərinin kəskin cərrahi xəstəlikləri | 6 N-li BŞX | Bakı şəhərinin Binəqədi rayonu | Gündüz saatlarında |
| | | 7 N-li BŞX | Bakı şəhərinin Sabunçu rayonu | |
| | | 14 N-li BŞX | Bakı şəhərinin Sabunçu və Xəzər rayonları | |
| | | 19 və 23 N-li BŞX | Bakı şəhərinin Qaradağ rayonu | |
| | | 26 N-li BŞX və 3 N-li TSH | Bakı şəhərinin Xəzər rayonu | |

| | | | | |
|---|---|---|---|---|
| 4 | Üz nahiyəsinin travmaları | Kliniki Tibbi Mərkəz<br>Respublika Klinik Xəstəxanası | Bakı şəhərinin bütün rayonları<br>Respublikanın digər şəhər və rayonları | 24 saat<br>24 saat |
| 5 | Kəllə beyin və onurğa sütununun travmaları | Respublika Neyrocərrahiyyə Xəstəxanası | Respublikanın bütün şəhər və rayonları | 24 saat |
| 6 | Damarların travmatik zədələnmələri, kəskin tromboz, magistral damarların emboliyası və digər damar patologiyaları | Elmi Cərrahiyyə Mərkəzi | Respublikanın bütün şəhər və rayonları | 24 saat |
| 7 | Diabetik yaralar, qanqrenalar, fleqmonalar və s. | 4 N-li Klinik Xəstəxana | Respublikanın bütün şəhər və rayonları | 24 saat |
| 8 | Yanıqlar | 5 N-li Klinik Xəstəxana | Respublikanın bütün şəhər və rayonları | 24 saat |
| 9 | Kardiocərrahiyyə | Elmi Cərrahiyyə Mərkəzi | Respublikanın bütün şəhər və rayonları | 24 saat |
| 10 | Erkən yaşlı uşaqların cərrahi patologiyaları | Elmi-tədqiqat Pediatriya İnstitutu | Respublikanın bütün şəhər və rayonları | 24 saat |

**Qeyd:** cədvəldə adları təkrar olunan rayonlardan xəstələr ərazi üzrə daha yaxın olan tibb müəssisəsinə hospitalizasiya edilirlər.